# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib









Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibati binasında qanvermə aksiyası keçirilib.

Aksiya YAP Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. Qanvermə aksiyasına Respublika Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub.

Respublika Qan Bankının həkimi Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər xəstəliklərdən əziyyət çəkən insanlara




yardım etməkdir. Yeni Azərbaycan Partiyasının davamlı olaraq qanvermə aksiyası təşkil etdiyini xatırladan G.Mehdiyeva bu təşəbbüsün humanist xarakter daşıdığını qeyd edib: "Qanvermənin insan sağlamlığına bir çox faydası var. Burada toplanan qanlar Respublika Qan Bankında müayinə olunacaq və aidiyyəti üzrə istifadə ediləcək. Belə bir xeyirxah təşəbbüsə görə partiyanın rəhbərliyinə, Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk".

Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla, 300-dən artıq YAP üzvü iştirak edib.

Azərbaycan.- 2024.- 6 noyabr (№245)- S.5.